Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
ARTİ Azərbaycan Respublikasının Təhsil İnstitutu
MÜTDA Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi
birbank

# RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

YARIMFİNAL MƏRHƏLƏSİ

Ad ______________________ Soyad ______________________

## Aşağı yaş qrupu

## 8 və 9-cu sinif

# COĞRAFİYA

## Azərbaycan bölməsi

- İmtahan müddəti — **120 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- 1-7-ci suallar **4**, 8-13-cü suallar **5**, 14-20-ci suallar **6** balla qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Yarımfinal mərhələsinin nəticələrini **11.03.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ______________________

**1.** Cədvəldə ölkəmizin ərazisində yerləşən müxtəlif məntəqələrə uyğun gələn iqlim diaqramları verilmişdir. Buna əsasən doğru bəndi müəyyən edin.

| I | II | III |
|---|---|---|
|  |  |  |
| a. Aid olduğu iqlim tipinə Qax və İsmayılı inzibati rayonlarında rast gəlinir.<br>b. Aid olduğu iqlim tipi ölkəmizin 50%-dən çox ərazisində yayılıb.<br>c. Aid olduğu məntəqənin yerləşdiyi inzibati rayonda filiz faydalı qazıntı yataqlarına rast gəlinir. | a. Aid olduğu iqlim tipinə Kiçik Qafqaz dağlarında rast gəlinir.<br>b. Aid olduğu məntəqənin yerləşdiyi inzibati rayonda əsasən suvarma əkinçiliyi üstünlük təşkil edir.<br>c. Aid olduğu iqlim tipinə Böyük Qafqaz dağlarında rast gəlinmir. | a. Aid olduğu məntəqənin yerləşdiyi inzibati rayon xarici ölkə ilə həmsərhəddir.<br>b. Aid olduğu məntəqənin yerləşdiyi iqtisadi rayonda yarımsəhra quru-çöl iqlim tipinə rast gəlinir.<br>c. Aid olduğu məntəqənin yerləşdiyi inzibati rayonda palıd və vələs meşələri yayılıb. |

A) I-a, b; II-b, c; III-a, b
B) I-a, c; II-a, b; III-b, c
C) I-b, c; II-a,b; III-b, c
D) I-a, c; II-b, c; III-b,c
E) I- b, c; II-a, b; III-a, c

**2.** Doğru ***olmayan*** fikirləri müəyyən edin.
1. Mali və Seneqal dövlətlərinin Dünya okeanına birbaşa çıxışı mövcuddur.
2. Piay və Ras-Xəfun ucqar nöqtələrinin yerləşdiyi yarımadalarda ekvatorial hava kütlələri müşahidə edilir.
3. Cənub tropik xətti lə kəsişən ən böyük adanın əhalisinin əksər hissəsi Niger-Kordofan dillərində danışır.
4. Reyn çayının mənsəbi yaxınlığındakı əhali sıxlığı Amazon çayının mənsəbi yaxınlığındakı əhali sıxlığından daha çoxdur.
5. Son 5 ildə dünya əhalisi ortalama hər il 200 milyon nəfərdən çox artıb.
6. Xammal ixracatından yüksək asılılıq iqtisadi riskləri artırır.

A) 2, 4, 6
B) 1, 5, 6
C) 1, 3, 5
D) 3, 4, 5
E) 2, 3, 6

**3.** Ölkəmizin iqtisadi rayonları ilə bağlı doğru ***olmayan*** fikirləri müəyyən edin.
1. Bütün iqtisadi rayonlarda inzibati rayon mərkəzi olmayan şəhərlər mövcuddur.
2. Qarabağ iqtisadi rayonunun yalnız bir inzibati rayonu xarici ölkə ilə həmsərhəddir.
3. Lənkəran-Astara iqtisadi rayonunda filiz faydalı qazıntı yataqlarına rast gəlinmir.
4. Ölkəmizin müvafiq olaraq şimal və qərb ucqar nöqtələrinin yerləşdiyi iqtisadi rayonlarda həm filiz, həm də qeyri-filiz faydalı qazıntı ehtiyatları mövcuddur.
5. Şəki-Zaqatala iqtisadi rayonunda şəhərlərin sayı Qazax-Tovuz iqtisadi rayonundakı şəhərlərin sayına bərabərdir.
6. Gəncə-Daşkəsən iqtisadi rayonunda vulkanik süxurlara rast gəlinmir.

A) 1, 5, 6
B) 2, 4, 6
C) 3, 4, 5
D) 2, 3, 4
E) 1, 2, 5

**4.** Materik və okeanlarla bağlı doğru fikirləri müəyyən edin.
1. Cənubi Amerika materikinin şərq və qərb ucqar nöqtələri cənub yarımkürəsində yerləşir.
2. Avrasiya materikinin ərazisində mövcud olan bütün iqlim qurşaqları tam zolaq təşkil edir.
3. Afrikada bütün çayların mənsəbi okean səviyyəsindədir.
4. Afrikanın ən uzun çayının mənsəbi mülayim işıqlanma qurşağında yerləşir.
5. Yalnız iki materikdə iqlim qurşaqları təkrar olunur.
6. Şimal Buzlu okeanda orta illik temperatur -30°C-dən aşağı olur.

A) 1, 3, 5
B) 2, 3, 5
C) 1, 4, 6
D) 2, 4, 6
E) 1, 4, 5

**5**. Cədvələ əsasən uyğun xüsusiyyətləri seçin.

| N | Ölkələr | Xüsusiyyətlər |
|---|---|---|
| 1 | Tacikistan | Əhalisinin əksər hissəsi Hind-Avropa dillərində danışır. |
| 2 | Türkiyə | Çayları iki okeanın sutoplayıcı hövzəsinə aiddir və sahillərində mövcud olan bütün dənizlər yalnız iki qitə sahillərini yuyur. |
| 3 | Mozambik | Zambezi çayının mənsəbi yerləşir. |
| 4 | Kamboca | Ərazisindən axan ən uzun və ən bolsulu çay tropik iqlim qurşağının yayıldığı ərazilərdən axmır. |
| 5 | Avstriya | Konstitusiyalı monarxiya idarəetmə sisteminə malikdir. |
| 6 | Boliviya | Ərazisinin bir hissəsi Uruqvayla eyni işıqlanma qurşağında yerləşir. |

A) 1, 5, 6 B) 2, 4, 5 C) 1, 3, 6 D) 2, 4, 6 E) 1, 3, 4

**6.** Doğru fikirləri müəyyən edin.
1. Qarda və Titikaka göllərinin yerləşdiyi ölkələrin inzibati-ərazi quruluşu unitardır.
2. Afrika materikinin sahəsinə görə ən böyük gölü Şimal dənizinin aid olduğu okeanın sutoplayıcı hövzəsində yerləşir.
3. Ölkəmizdə yerləşən Batabat və Qaragöl tektonik mənşəlidir.
4. Antarktida materikindən başqa digər bütün materiklərdə qırmızı-qonur torpaqlara rast gəlinir.
5. OPEK təşkilatı regional iqtisadi əməkdaşlığın bariz nümunəsidir.
6. Ölkəmizdə dövlət müəssisələrində çalışanların payı özəl müəssisələrdə çalışanların payından daha çoxdur.

A) 3, 5, 6
B) 2, 4, 6
C) 1, 3, 5
D) 1, 2, 4
E) 1, 3, 4

**7.** Balkan və Keyp-York yarımadaları üçün uyğun sıraları müəyyən edin.

| | *aiddir* | *aid deyil* |
|---|---|---|
| 1 | Keçid iqlim qurşağında yerləşir. | Geosinklinalda yerləşir. |
| 2 | İyun, iyul və avqust aylarında tropik hava kütlələri hakim olur. | Sahillərini daxili dəniz suları yuyur. |
| 3 | Aid olduğu qitə iki işıqlanma qurşağında yerləşir. | Əkinçlik üçün əlverişli təbii şəraitə malikdir. |
| 4 | Aid olduğu materikin ən uzun çayı daxili axarsız hövzəyə aiddir. | Qütb ulduzu görünmür. |
| 5 | 2026-cı ili Madakaskar adasından daha tez qarşılayıb. | Sahillərində mərcan mənşəli adalar rast gəlinir. |
| 6 | Gecə və gündüzün adi növbələşməsi pozulmur. | Yerləşdiyi materikdə mülayim iqlim qurşağı mövcuddur. |

A) 1, 2, 6
B) 2, 4, 5
C) 1, 3, 6
D) 1, 3, 5
E) 2, 3, 4

**8.** Rusiya və Kanada üçün oxşar xüsusiyyətləri müəyyən edin.
1. Yay və qış vaxtları tətbiq edilir.
2. Sahillərini Çukot dənizi yuyur.
3. Fəaliyyətdə olan vulkanlara rast gəlinir.
4. Ərazisindən axan ən uzun çayın mənbəyi mülayim işıqlanma qurşağında yerləşir.
5. Yerləşdiyi materikin şimal və şərq ucqar nöqtələri ərazisində yerləşir.
6. Şərq hissəsində Mezozoy erasında yaranmış dağlar mövcuddur.
A) 1, 3, 6   B) 3, 4, 5   C) 2, 4, 5   D) 1, 5, 6  E) 2, 3, 4

**9.** Doğru fikirləri müəyyən edin.
1. Bütün saat qurşağında yerləşən materikdə zəlzələlər baş vermir.
2. Günəşin zenitdə olduğu bütün materiklərdə codyarpaqlı həmişəyaşıl meşələr və kolluqlar təbii zonasına rast gəlinir.
3. Sinoptik xəritələrdə izobar və izotermlər əsas göstərici kimi təqdim edilir.
4. Hind okeanının şimal yarımkürəsində yerləşən hissəsində daimi passat okean cərəyanı mövcuddur.
5. Luara çayının axdığı ölkə "Böyük yeddilik" qrupuna daxil deyil.
6. Nigerdə hər min nəfərə düşən təbii artım Çindəkindən daha çoxdur.

A) 2, 4, 6    B) 1, 3, 5  C) 2, 3, 6  D) 1, 5, 6  E) 2, 3, 4

**10.** Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| *Doğru* | *Yanlış* |
|---|---|
| 1. Şimali Amerika materikində dövlət sərhədi boyunca axan ən uzun çayın sutoplayıcı hövzəsi bir işıqlanma qurşağında yerləşir.<br>2. Kolorado çayı üzərində yerləşən Qrand-Kuli ABŞ-də ən böyük SES-dir.<br>3. Şərqi Avropada AES qəzasının baş verdiyi ölkənin sahillərini iki dənizin suları yuyur. | 4. Subduksiya zonalarında orta okean silsiləsi yaranır.<br>5. Orisaba və Kotopaxi fəaliyyətdə olan vulkanlardır.<br>6. Azor adaları Portuqaliyaya aiddir. |

A) 2, 3, 5  B) 2, 4, 6   C) 1, 3, 6   D) 1, 3, 4   E) 2, 4, 5

**11.** Aysberqlər haqqında doğru fikirləri müəyyən edin.
1. Okean sularının donması nəticəsində yaranır.
2. Okeana daxil olduğu zaman təqribən 90%-ə qədəri suyun altında olur.
3. Dəniz nəqliyyatı üçün risk yaradır.
4. Yalnız Antarktida materiki və Qrenlandiya adasındakı buzlaqlardan formalaşır.
5. Yalnız qütb işıqlanma qurşağında yaranır.
A) 4, 5       B) 1, 5       C) 2, 4       D) 1, 3      E) 2, 3

**12**. ***A** təbii zonası Arnemlend yarımadasında yayılıb.*
***B** təbii zonası isə Avstraliya materikinin ucqar cənub qərb hissəsində yayılıb.*
Mətn və cədvəllərə əsasən düzgün bəndi seçin.

| **I – A Təbii zonası** | |
|---|---|
| Doğrudur | Yanlışdır |
| 1. Əkinçilik üçün əlverişli təbii şəraitə malikdir.<br>2. Misir ərazisində rast gəlinir.<br>3. Antarktidadan başqa bütün materiklərdə rast gəlinir. | 4. Yalnız Günəşin zenitdə olduğu ərazilərdə yayılıb.<br>5. Somali yarımadasında yayılıb.<br>6. Rütubətlənmə əmsalının vahiddən kiçik olduğu ərazilərdə yayılıb. |

| **II – B Təbii zonası** | |
|---|---|
| Doğrudur | Yanlışdır |
| 1. Qəhvəyi torpaqlar üstünlük təşkil edir.<br>2. İki iqlim qurşağının mövcud olduğu ərazilərdə yayılıb.<br>3. Həm Günəşin zenitdə olduğu, həm də olmadığı ərazilərdə yayılıb. | 4. Rütubətlənmə əmsalının vahiddən kiçik olduğu ərazidə yayılıb.<br>5. Madaqaskar adasında yayılıb.<br>6. Yağıntılar əsasən ilin isti dövründə düşür. |

A) I-1, 3, 4; II-2, 4, 6
B) I-1, 2, 5; II-2, 3, 4
C) I-1, 3, 4; II-1, 5, 6
D) I-2, 4, 5; II-1, 3, 5
E) I-1, 3, 6; II-1, 5, 6

**13.** Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| **I-Kür çayı** | **II-Araz çayı** |
|---|---|
| Doğrudur | Doğrudur |
| 1. Qidalanmasında yeraltı sular üstünlük təşkil edir.<br>2. Ölkəmizin ərazisində sahilləri boyu yalnız bir iqlim tipinə rast gəlinir.<br>3. Tovuz, Zərdab və Sabirabad inzibati rayonları hər iki sahilində yerləşir.<br>4. Böyük Alagöl və Batabat gölləri sutoplayıcı hövzəsində yerləşir.<br>5. Üzərindəki ən böyük su anbarından yalnız elektrik enerjisi əldə etmək üçün istifadə edilir.<br>6. Həm sağ, həm də sol sahilində axmaz mənşəli göllər mövcuddur. | 1. Dörd iqtisadi rayon ərazisindən axır.<br>2. Qidalanmasında qar və buzlaq suları üstünlük təşkil edir.<br>3. Mənsəbinin mütləq hündürlüyü okean səviyyəsindən aşağıdadır.<br>4. Həkəri və Qarqar çaylarının mənsəbidir.<br>5. Mənbəyinin yerləşdiyi ölkənin sahillərində tayqa təbii zonasına rast gəlinir.<br>6. Keçdiyi ölkələrdən birinin sərhədini Hind okeanının suları yuyur. |

A) I-2, 4, 6; II-1, 3, 6
B) I-2, 4, 5; II-1, 3, 6
C) I-1, 3, 5; II- 2, 5, 6
D) I-2, 4, 6; II- 3, 4, 5
E) I-1, 3, 6;  II-1, 2, 4

**14**. ***A*** *dənizi iki materikin sahillərini yuyur. Bu dənizin yerləşdiyi okeana tökülən ən uzun çayın mənsəbi və mənbəyi eyni işıqlanma qurşağında yerləşir. Bu dəniz boğaz vasitəsilə dünyanın ən kiçik okeanı ilə su əlaqəsinə malikdir.* ***B*** *dənizi iki qitənin sahillərini yuyur. Bu dənizə tökülən ən uzun çay qitənin ən uzun ikinci çayıdır.* ***B*** *dənizi yalnız İEOÖ-in sahillərində yerləşir.*
Mətnə və cədvəllərə əsasən uyğunluğu müəyyən edin.

| **I – A dənizi** | |
|---|---|
| Doğrudur | Yanlışdır |
| 1. Donmaya məruz qalmır.<br>2. Üç yarımkürədə yerləşir.<br>3. Coğrafi mövqeyinə görə kənar dənizdir. | 4. Bu dənizə tökülən ən uzun çay iki ölkə ərazisindən axır.<br>5. Sahillərini yuduğu materiklərin bir-biri ilə quru sərhədləri mövcuddur.<br>6. Gecə və gündüzün adi növbələşməsi pozulmur. |

| **II – B dənizi** | |
|---|---|
| Doğrudur | Yanlışdır |
| 1. Coğrafi mövqeyinə görə daxili dənizdir.<br>2. Sahillərində yalnız unitar inzibati ərazi quruluşuna malik dövlətlər yerləşir.<br>3. Sahillərində fəaliyyətdə olan maqmatik vulkanlara rast gəlinir. | 4. Orta duzluluğu 42‰ deyil.<br>5. İki işıqlanma qurşağında yerləşir.<br>6. Sahilini yuduğu qitənin bütün ucqar nöqtələri şimal və şərq yarımkürələrində yerləşir. |

A) I-1, 2, 5; II-2, 3, 4
B) I-1, 3, 4; II- 2, 4, 6
C) I-2, 4, 5; II-1, 3, 5
D) I-1, 3, 6; II-1, 5, 6
E) I-2, 3, 5; II-1, 5, 6

**15.** Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin**.**




1. Dağ buzlaqlarına rast gəlinir.
2. Sahillərini üç okeanın suları yuyur.
3. Cənub ucqar nöqtəsində Günəş zenitdə olmur.
4. Sahillərini yalnız Sakit okean sularının yuduğu ölkələr mövcuddur.
5. Yerləşdiyi litosfer tavası Afrika litosfer tavası ilə həmsərhəd deyil.
6. Federativ inzibati ərazi quruluşuna malik ölkələr mövcuddur.

A) 1, 3, 5 B) 1, 4, 6 C) 2, 3, 6 D) 1, 3, 4 E) 2, 4, 6

**16**. A məntəqəsində atmosfer təzyiqi 570 mm c.s.-dur. A və B məntəqələri arasındakı temperatur fərqinin 8,4°C təşkil etdiyini nəzərə alaraq, B məntəqəsinin mütləq hündürlüyünü müəyyən edin. (Nəzərə alın ki, dəniz səviyyəsində təzyiq normaldır).




A) 2200 m
B) 1400 m
C) 2600 m
D) 3300 m
E) 1200 m

**17.** Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin**.**




a. Mənbəyini Kiçik Qafqaz dağlarından götürür.
b. Kür çayının qoludur.
c. Mənsəbində mülayim-isti iqlim tipi yayılıb.
d. Keçdiyi inzibati rayonlardan ən azından biri iki ölkə ilə həmsərhəddir.
e. Qolları xarici ölkədə yerləşir.
A) 1-a-c; 2-b; 3-d
B) 1-a, b; 2-e; 3-c, d
C) 1-a; 2-b; 3-c,d
D) 1-a; 2-b; 3-d e
E) 1-c; 2-e; 3-d

**18.** İqlim diaqramının aid olduğu məntəqənin mövcud olduğu şəhər geosinklinalda yerləşir və böyük yeddilik (G7) qrupuna üzv olan ölkənin paytaxtıdır.

Doğru fikirləri müəyyən edin.




1. Ölkəmiz bu iqlim diaqramının aid olduğu iqlim qurşağında yerləşir.
2.Aid olduğu məntəqədə ilboyu yüksək təzyiq hakimdir.
3. Aid olduğu iqlim qurşağı yalnız bir işıqlanma qurşağında yerləşir.
4. Bir ildə düşən yağıntının miqdarı 700 mm-dən çoxdur.
5. Aid olduğu məntəqənin mütləq hündürlüyü 3500 metrdən yüksəkdir.
6. Aid olduğu iqlim qurşağının yayıldığı ərazidə İEÖ mövcud deyil.

A) 2, 3, 6   B) 3, 4, 5  C) 1, 3, 4   D) 4, 5, 6   E) 1, 2, 5

**19.** Cədvələ əsasən doğru sıraları müəyyən edin.

| № | Qoruq və ya milli parklar | Xüsusiyyətləri |
|---|---|---|
| 1 | Qaragöl | Dağ-kserofit bitkiləri geniş yaylılıb. |
| 2 | Samur-Yalama | Neft yataqları mövcuddur. |
| 3 | Ağgöl | Okean səviyyəsindən aşağıda yerləşir. |
| 4 | Şirvan | Arid-denudasion relyef formaları üstünlük təşkil edir. |
| 5 | Korçay | Tektonik çökmə zonasında yerləşir. |
| 6 | Bəsitçay | Yerləşdiyi inzibati rayonda qızıl yataqları mövcuddur. |

A) 1, 2, 6 B) 3, 5, 6 C) 1, 3, 5 D) 2, 3, 4, E) 1, 4, 5

**20.** Doğru fikirləri müəyyən edin.
1. Daşkəsən, Ordubad və Ağdərədə filiz mənşəli faydalı qazıntı ehtiyatları mövcuddur.
2. Şahdağ milli parkının ekoloji vəziyyəti Samur-Yalama milli parkındakından daha yaxşıdır.
3. Günəşin zenitdə olduğu bütün ərazilərdə fiziki aşınma intensiv gedir.
4. Böyük Viktoriya və Böyük Qumlu səhralarında çox sayda vahələrə rast gəlinir.
5. Baltik dənizinin orta duzluluğu dünya okeanının orta duzluluğundan daha çoxdur.
6. Subduksiya zonalarında dağəmələgəlmə prosesi hal-hazırda da davam etməkdədir.

A) 1, 3, 5 B) 1, 2, 6 C) 2, 3, 5 D) 2, 4, 6 E) 1, 2, 4